

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Aprel 2021

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
**Made in Azerbaijan**

**“BU YAXINLARDA MƏN NÖVBƏTİ ON İL ÜÇÜN SOSİAL-İQTİSADİ İNKİŞAFLA BAĞLI MİLLİ PRİORİTETİ MÜƏYYƏN ETMİŞƏM Kİ, BURAYA RƏQABƏTLİ İNSAN KAPİTALI VƏ MÜASİR İNNOVASİYALAR MƏKANI, İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ BÖYÜK QAYIDIŞ, TƏMİZ ƏTRAF MÜHİT VƏ “YAŞIL ARTIM” ÖLKƏSİ DƏ DAXİLDİR”.**

İlham Əliyevin
BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda çıxışı,
26 aprel 2021



“Hazırda qarşımızda işğaldan azad olunmuş ərazilərdə tamamilə dağıdılmış şəhər və kəndlərin, bütün mədəni və dini abidələrin bərpası kimi nəhəng vəzifə dayanır. Yenidənqurma prosesi çərçivəsində “ağıllı şəhər”, “ağıllı kənd” və “yaşıl enerji” konsepsiyalarından istifadə olunacaq”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 10

2021-ci ilin yanvar-mart aylarında "Azərkosmos" ASC 10,6 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir ____ səh. 13

2021-ci ilin yanvar-mart aylarında Azərbaycanda xaricilər bank kartları vasitəsi ilə 83,9 milyon manatlıq əməliyyat aparmışlar ____ səh. 14

Azexport.az portalına 2021-ci ilin yanvar-mart aylarında 131,2 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 16

2021-ci ilin aprel ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 17,1 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ____ səh. 19

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2021-ci ilin **yanvar-mart ayları** ərzində **Azərbaycanın ixracı** **4,1 milyard** ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

2021-ci ilin **yanvar-mart aylarında** qeyri-neft sektoru üzrə ixrac **501,5 milyon** ABŞ dolları təşkil etmişdir

2021-ci ilin birinci rübü ərzində Azərbaycanın ixracı **4,1 milyard ABŞ dolları** olub. Qeyri-neft sektoru üzrə **501,5 milyon ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 70,6 milyon ABŞ dolları və ya 16,4 faiz artıb. Qeyri-neft sektorunun Azərbaycanın ixracında payı ötən ilin müvafiq rübü ilə müqayisədə 2 faiz artaraq 12,1% olub. Bu dövr ərzində qeyri-neft məhsullarının ixracı üzrə 393 mal mövqeyi müəyyənləşdirilib ki, bu da mal və məhsulların diversifikasiyası nöqteyi nəzərdən Cənubi Qafqaz ölkələri üzrə ən yüksək göstəricidir.

2021-ci ilin birinci rübü ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı birinci, qızıl ikinci və xurma üçüncü olub.

Bu ilin birinci rübü ərzində Türkiyəyə **163,1 milyon**, Rusiyaya **129,8 milyon**, İsveçrəyə **44,7 milyon**, Gürcüstana **38 milyon** və ABŞ-a **18,3 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin mart ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (31,4 milyon ABŞ dolları) birinci, polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (13,7 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (9,7 milyon ABŞ dolları) üçüncü olub.

2021-ci ilin mart ayında qeyri-neft sektoru üzrə ixrac 170 milyon ABŞ dolları təşkil edib. Bu ilin mart ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə (56,2 milyon ABŞ dolları) birinci yerdə qərarlaşıb. Bu siyahıda Rusiya ikinci (44,3 milyon ABŞ dolları) və Gürcüstan üçüncü (9,7 milyon ABŞ dolları) olub.

Ümumiyyətlə, 2021-ci ilin birinci rübü ərzində meyvə-tərəvəz ixracı **97,2 milyon**, pambıq lifi ixracı **69 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **42,4 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **22,2 milyon**, pambıq ipliyi ixracı **10,3 milyon**, kimya sənayesi məhsullarının ixracı **9 milyon**, şəkər ixracı **9 milyon**, heyvan mənşəli piylər və yağlar ixracı **8,4 milyon**, spirtli və spirtsiz içkilərin ixracı **3,4** milyon, bitki və çay ixracı **2 milyon ABŞ dolları** təşkil edib. Qeyd edilən mal və məhsullar qeyri-neft ixracının **45%**-ini təşkil edir. Bu göstərici qeyri-neft ixracının artımı fonunda mal və məhsulların ötən illərlə müqayisədə daha çox diversifikasiya olunmasını özündə ehtiva edir.

MADE IN AZERBAIJAN

# 2021-ci ilin **YANVAR-MART AYLARINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-ci ilin **MART AYINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



2021 İXRAC İCMALI APREL

# 2021-ci ilin **YANVAR-MART AYLARINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)












| Mal | 2021 | 2020 |
|---|---|---|
| Pambıq mahlıcı | 68,6 | 42,8 |
| Qızıl | 43,2 | 36,3 |
| Xurma | 31,9 | 14,1 |
| Qabığı təmizlənmiş meşə fındığı | 28,5 | 36,3 |
| İlkin formalı polipropilen | 26,8 | 21,1 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 21,7 | 12,7 |
| Tomat (pomidor) | 21,3 | 43,9 |
| Polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr | 17,7 | 0 |
| Elektrik enerjisi | 16,1 | 17,8 |
| Digər | 225,8 | 203,9 |

## 2021-ci ilin **MART AYINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI APREL

**Pambıq mahlıcı**
2021: 31,4
2020: 12,9



**Polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr**
2021: 13,7
2020: 0



**Qabığı təmizlənmiş meşə fındığı**
2021: 9,7
2020: 14,1



**Qızıl**
2021: 8,8
2020: 9



**Tomat (pomidor)**
2021: 7,1
2020: 19,2



**İlkin formalı polipropilen**
2021: 7
2020: 6,7



**Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen**
2021: 6,4
2020: 4,4



**İlkin formalı propilen sopolimerləri**
2021: 5,6
2020: 1,1



**Aşqarlanmamış alüminiumdan düzbucaqlı plitələr**
2021: 5,5
2020: 1,9



**Digər**
2021: 75
2020: 64



# MART AYINDA ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI APREL

## 2019




Xurma
**12,6**




Elektrik enerjisi
**19,4**




Fındıq ləpəsi
**13,7**

## 2020




Qızıl
**16,3**




Pambıq mahlıcı
**19,5**




Tomat (pomidor)
**19,2**

## 2021




Xurma
**16,7**




Qızıl
**24,7**




Pambıq mahlıcı
**31,4**

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## **2021-ci ildə mart ayında** qeyri-neft sektoru üzrə **əsas ixracatçı subyektlərin reytinqi**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2021-ci ilin yanvar-mart ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2021-ci ilin yanvar-mart ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "P-Aqro" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Baku Steel Company", "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Metal Trader LTD" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "Critical və “Aqrovest” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan və 150 min ABŞ dollarında yuxarı ixrac həyata keçirən şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Dəmir Yolları" QSC, “Azəripək” MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2021-ci ilin **YANVAR-MART AYLARINDA** qeyri-neft sektoru üzrə **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-ci ilin **YANVAR-MART AYLARINDA** qeyri-neft sektoru üzrə **DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI APREL




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir.



# 2021-ci ilin **YANVAR-MART AYLARINDA "AZƏRKOSMOS" ASC 10,6 MİLYON ABŞ DOLLARI** dəyərində **XİDMƏT İXRAC ETMİŞDİR**

2021 İXRAC İCMALI APREL



Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir. 2021-ci ilin yanvar-mart aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **27 ölkəsinə 10,6 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 89 faizini təşkil edib. 2021-ci ilin mart ayında isə "Azərkosmos" ASC dünyanın **26 ölkəsinə 2,1 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.




## 2021-ci ilin yanvar-mart aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi 5 əsas ölkə

- ABŞ — 4,7 mln $
- Birləşmiş Krallıq — 2,3 mln $
- Fransa — 1,9 mln $
- BƏƏ — 433 min $
- Pakistan — 351 min $



## 2021-ci ilin **yanvar-mart aylarında** Azərbaycanda **xaricilər bank kartları vasitəsi ilə 83,9 milyon** manatlıq əməliyyat aparmışlar

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2021-ci ilin yanvar-mart aylarında Azərbaycana dünyanın **128 ölkəsindən 117,2 min** və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,4 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmiş və baş tutmuş səfərlər əsas etibarilə qeyri-turizm məqsədilə həyata keçirilmişdir.

Ölkəmizə gələnlərin 33,0 faizi Rusiya Federasiyası, 27,9 faizi Türkiyə, 16,2 faizi İran, 10,6 faizi Gürcüstan, 2,4 faizi Ukrayna, 1,1 faizi Böyük Britaniya, 1,0 faizi Belarus, hər birindən 0,7 faiz olmaqla Qazaxıstan və Özbəkistan, 0,6 faizi Türkmənistan, hər birindən 0,5 faiz olmaqla İtaliya və Almaniya, 4,8 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 93,4 faizini kişilər, 6,6 faizini qadınlar təşkil etmişdir.

Ötən ilin eyni dövrü ilə müqayisədə cari ilin yanvar-mart aylarında Gürcüstandan gələnlərin sayı 11,9 dəfə, Türkmənistandan - 8,9 dəfə, Qazaxıstandan - 7,7 dəfə, Özbəkistandan - 5,2 dəfə, Rusiya Federasiyasından - 4,1 dəfə, Ukraynadan - 3,7 dəfə, Böyük Britaniyadan - 3,6 dəfə, Belarusdan - 2,1 dəfə, Türkiyədən - 1,9 dəfə, İrandan - 1,6 dəfə azalmışdır.

2020-ci ilin yanvar-mart ayları ilə müqayisədə ümumilikdə körfəz ölkələrindən gələnlərin sayı 3,5 dəfə azalaraq 19,4 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 4,2 dəfə azalaraq 45,6 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 3,5 dəfə azalaraq 4,3 min nəfər olmuşdur.

2021-ci ilin mart ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi 33,4 milyon manat təşkil etmişdir. 2021-ci ilin yanvar-mart aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə 83,9 milyon manatlıq əməliyyat aparmışlar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# Azərbaycana gələn **XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatlar (milyon manatla)

2021 İXRAC İCMALI APREL

**2019**

Yanvar - **88,3**
Fevral - **85,3**
Mart - **98**
**Cəmi - 271,6**

**2020**

Yanvar - **85,2**
Fevral - **72,9**
Mart - **53,9**
**Cəmi - 212**

**2021**

Yanvar - **25**
Fevral - **25,5**
Mart - **33,4**
**Cəmi - 83,9**

# 3

# AZEXPORT.AZ PORTALINA 2021-Cİ İLİN YANVAR-MART AYLARINDA 131,2 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri**
2 **milyard** 327 **milyon** ABŞ dolları
təşkil etmişdir

2021-ci ilin yanvar-mart aylarında Azexport.az portalına 131,2 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2021-ci ilin mart aylarında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə **42 milyon ABŞ dolları** təşkil etmişdir.

2021-ci ilin mart ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq, pambıq yağı, yumurta, boya məhsulları, kərə yağı, alma, şəkər tozu, üzüm şərabları, tütün, konyak, nar konsentratı, çay, bal, enerji içkisi, tibbi zəli və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 31 mart tarixinə kimi (51 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2 milyard 327 milyon ABŞ dolları təşkil edib.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# AZEXPORT.AZ PORTALINA daxil olan İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ



2017-ci il - **475 mln $**

2018-ci il - **514,1 mln $**

2019-cu il - **595,7 mln $**

2020-ci il - **610,8 mln $**




2021-ci il

Yanvar - **53,9 mln $**

Fevral - **35,3 mln $**

Mart - **42 mln $**

2021-ci il - **131,2 mln $**



Son **51 ay** ərzindəki sifarişlərin cəmi - **2 326,8 mln $**

# 2021-ci ilin **MART AYINDA** AZEXPORT.AZ PORTALINDAN **İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR**

2021 İXRAC İCMALI APREL

Pambıq



Pambıq yağı



Yumurta



Boya məhsulları



Kərə yağı



Alma



Şəkər tozu



Üzüm şərabları



Tütün



Konyak



Nar konsentratı



Çay



Bal



Enerji içkisi




Tibbi zəli



# 4

# 2021-Cİ İLİN APREL AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 17,1 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2021-ci ilin aprel ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən **104 dəfə müraciət** daxil olunub. Ümumilikdə **135 ədəd sertifikat** (89 ədəd mənşə, 28 ədəd baytarlıq, 5 ədəd Qida təhlükəsizliyi sertifikatı, 13 ədəd CİTES) verilib.

Cari ilin aprel ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **17,1 (17,063,349.07) milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli külçələr, nar, alma, qarışıq şirələr, narşərab, çaxır, bitki və günəbaxan yağları, tibbi zəli, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, iribuynuzlu heyvan bağırsağı, pendir, dondurma üçün vafli stəkanı, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların kürüsü və dondurulmuş əti, dondurma, dondurma üçün vafli stəkanı, süd seperatoru, kəsilmiş qızılgül, mebel, polad boru, polad kvadrat pəstah ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli külçələr (61,1%), polad kvadrat pəstah (19,5%), günəbaxan yağları (10,7%), meyvə şirələri (1,5%) pendirin (1%) ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 21 ölkəyə- İsveçrə (61,1%), Rusiya (14,7%), İraq (9,2%), Türkiyə (8,7%), Honq-Konq (1%), digər ölkələrə (5,2%) - (Qazaxıstan, Kanada, Avstraliya, Belarus, Ukrayna, Gürcüstan, ABŞ, Özbəkistan, BƏƏ, İsrail, Belarus, İran, Fil Dişi Sahili, Almaniya, Slovakiya, Qırğızıstan) ixrac edilmişdir.

İxrac olunan məhsulların hava nəqliyyatı ilə (61,2%), avtomobil ilə (19,8%), dəmiryolu nəqliyyatı (16,2%), qarışıq nəqliyyat ilə ixracı isə (2,8%) təşkil edir.

Ixrac statistikasına nəzər yetirdikdə 2020-ci ilin aprel ayı ilə müqayisədə ixracda 15,2 milyon ABŞ dolları dəyərində artım müşahidə olunmuşdur.

# 2021-ci ilin **APREL AYINDA** "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən **İXRACIN STATİSTİKASI** (milyon ABŞ dolları ilə)






# Cari ilin **APREL AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin** təqdim etdiyi **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**

İSVEÇRƏ
**61,1%**

TÜRKİYƏ
**8,7%**




RUSİYA
**14,7%**

HONQ-KONQ
**1%**

İRAQ
**9,2%**

## Cari ilin **APREL AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə
## **ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ**



# Cari ilin **APREL AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə ixrac edilən məhsulların **NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


